Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 38-39 (7500-7501) 1933-cü ildən nəşr olunur Cümə axşamı, 30 avqust 2018-ci il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**26 avqust**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Şamaxı və İsmayıllı rayonlarına səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli müəssisələrin açılışında iştirak ediblər.

**25 avqust**

Almaniya Federativ Respbulikasının Kansleri Angela Merkel Azərbaycanda səfərdə olub. Azərbaycan Respbulikasının Prezidenti cənab İlham Əliyevlə xanım Angela Merkelin geniş tərkibində görüşü keçirilib.

**24 avqust**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.

**23 avqust**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nqo Duk Manhın, Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İssiradjou Gomina İbrahimin, İslandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Berqlind Asqeyrsdottirin etimadnamələrini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ukraynanın Prezidenti Zati-aliləri cənab Petro Poroşenkonu Ukraynanın milli bayramı - Müstəqillik Günü münasibətilə öz adından və Azərbaycan xalqı adından təbrik edib.

**20 avqust**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hindistan Respublikasının Prezidenti Zati-aliləri cənab Ram Nat Kovində məktub göndərərək Hindistanda baş vermiş irimiqyaslı daşqınlar nəticəsində çoxsaylı insan tələfatı xəbərindən kədərləndirdiyini bildirib.

Hindistan Prezidentinə həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib.

**18 avqust**

Ölkəmizin başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana məktub göndərərək onu qardaş Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının Sədri vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib.

## İlham ƏLİYEV:

***Elə etməliyik ki, Azərbaycan iqtisadiyyatı uzunmüddətli, gələcəkdə dayanaqlı iqtisadiyyat kimi özünü göstərsin, neftdən, qazdan asılılıq daha da aşağı düşsün və qeyri-neft sektorunun inkişafı sürətlə davam etdirilsin.***

# Qeyri-neft sektoru məhsullarının ixracını daha da artırmaq tədbirləri uğurla davam edir

Son iki ildə Azərbaycanda həyata keçirilən islahatların əsas istiqamətləri iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək, ölkəmizin ixrac imkanlarını genişləndirməkdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli sərəncamı, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il tarixli fərmanı və digər hüquqi sənədlər, Azərbaycanda qeyri-neft sektorunun inkişafında yeni mərhələnin başlandığından xəbər verir.

Bu sahədə görülən əsaslı tədbirlərin nəticəsidir ki, 2018-ci ilin 6 ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 846,5 milyon dollar təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə ixrac 110,5 milyon dollar və ya 15 faiz artıb. 6 ay ərzində Rusiyaya 319,9 milyon, Türkiyəyə 180,1 milyon, Gürcüstana 74,1 milyon, İsveçrəyə 69,3 milyon və Çinə 23,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

2018-ci ilin ilk altı ayı ərzində meyvə-tərəvəz ixracı 276,7 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 71,8 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 69,7 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 37,8 milyon, kimya sənayesi məhsullarının ixracı 30,7 milyon, pambıq ipliyi ixracı 9,9 milyon dollar təşkil edib.

Son 6 ayda "Azərkosmos" ASC tərəfindən dünyanın 19 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" peyk və telekommunikasiya xidmətlərinin ixracından 12,7 milyon dollar məbləğində gəlir əldə edib.

Qurumun xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib. İyun ayında isə "Azərkosmos"un xidmət ixracının dəyəri 1,6 milyon dollar olub.

Qeyri-neft sektorunda, ölkəmizə xarici dayanıqlı valyutaların daxil olmasında turizmin rolu gündən-günə artır. Yanvar-iyun ayları ərzində Azərbaycana dünyanın 189 ölkəsindən 1,325 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz çox xarici turist gəlib. Son 6 ay ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 620,4 milyon manat təşkil edib. Yəni 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 113 milyon AZN və ya 22,3 faiz çoxalıb.

**«Qəbələ»**

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva:

*"Mənim ölkənin Birinci vitse-prezidenti təyin olunmağım barədə qərar Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü idi. Əlbəttə, mənim artıq uzun illər Prezidentin təkcə həyat yoldaşı deyil, deyə bilərəm ki, həmməsləki olmağım yəqin ki, öz rolunu oynayıb. Lakin düşünürəm ki, onun belə qərara gəlməsinin səbəbi bu deyildi. Əsas budur ki, rəhbər vəzifədə - Azərbaycan Respublikasının Prezidenti kimi İlham Əliyev ilk növbədə, ölkənin və Azərbaycan xalqının maraqlarına istinad edir. Düşünürəm ki, bu qərarı da o, bu prinsiplərə istinad edərək qəbul etmişdir. Buna görə də əlbəttə, üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam."*

*(Davamı səh. 2-də).*